*Səfər düşüncələri*



# “Qəlbim Egeydə qaldı...”



***Əslən izmirli olan ünlü sənətçi Sezen Aksunun şərqisindəki misranı İzmirdən yazdığım qeydlərin ruhuna uyğun bildim***



**Tanrı öz səxavətini əsirgəməyib bu yerləri cənnət kimi gözəl yaratdı. Dünyanın hər yerindən insanların bura axışdığını gördükdə isə hər kəsin qəlbinə Vətən sevgisi hissini aşılamaqla bu məsələni yoluna qoydu.–Tarixçilər Zərdüştiliyin baş kitabı olan “Avesta”dan götürülmüş bu fikirlərin Azərbaycan barədə deyildiyini təxmin edirlər. Lakin dünyanın harasında olursa-olsun, təbiət gözəlliyi görərkən bu sözlər yadıma düşür. Təkcə qardaş Türkiyənin yox, bütün dünyanın ən füsunkar guşələrindən biri olan İzmirə səfərim zamanı da bu hissləri keçirdim. Bu cənnət məkana, sözün həqiqi mənasında, heyran qaldım və bütün gözəlliyin yaradıcısı, intəhasız qüdrət və səxavət sahibi olan Allaha bir daha şükürlər elədim.**

Səkkiz min beş yüz illik tarixi olan İzmir (qədim mənbələrdə adı Smirnadır. Smirna bu məmləkətdə çox qədim dövrlərdə yaşayıb, mübarizə aparmış amazonkaların igid kraliçasının adı idi.–Q.P.). Türkiyənin ən böyük turizm bölgələrindəndir. Şübhəsiz, bunu şərtləndirən səbəblər çoxdur. İlk növbədə isə bu, bənzərsiz təbiəti, möhtəşəm tarixi abidələrinin bolluğu və zəngin mədəni irsə sahib olması ilə bağlıdır.



İzmir antik dövrün 7 müdrik filosofundan Anaksaqorun (miladdan əvvəl V əsr), Heraklitin (m.ə. 540-428), tarixin atası hesab olunan Heredotun, qədim yunan şairi Homerin (o, “İlida” poemasını Smirnada yazmışdır) və başqa məşhurların Vətənidir. Dünyanın “Yeddi möcüzəsi”ndən biri–Artemida məbədi (Artemis tapınağı) burada–Efesdə olub. Elm aləminə məlum olan ən qədim körpü miladdan əvvəl 850-ci ildə İzmir yaxınlığında, Meles çayı üzərində salınmışdır və indiyədək qorunub saxlanılır. Perqament kağızı burada –Berqamada kəşf edilmişdir. Kağız puldan tədavül vasitəsi kimi dünyada ilk dəfə burada istifadə olunmuşdur. Müasir tibb elminin rəmzi olan piyalə üzərində ilan təsviri ilk dəfə burada hazırlanmışdır. Onu da əlavə edək ki, Berqama “təbabət Allahı” Asklepionun (Hippokratın babası) Vətənidir.

İsa peyğəmbərin (ə.) anası müqəddəs Məryəm (ə.) ömrünün son illərini bu yerlərdə –Selçukda keçirmiş və 101 yaşadək ömür sürmüşdür. O, burada Bülbüldağ kimi tanınan yerdə öz adına kilsə inşa etdirmişdir. Deyilənə görə, Məryəm ananın məzarı da buradadır. 1957-ci ildə Roma papası tərəfindən bu ərazi xristianlar üçün ziyarət ocağı – “Xaç yeri” elan olunmuşdur. Rəvayətə görə, İsa peyğəmbərin (ə.) çarmıxa çəkilməsindən sonra Qüdsdən Selçuka gələn, xristian dininin ən məşhur həvarilərindən biri apostol İohan (İslam dinində Yəhya ibn Zəkəriyyə kimi tanınır–Q.P.) “İncil”i burada yazıya köçürmüş, ömrünün sonunadək onun təbliği və tədrisi ilə məşğul olmuşdur. Onun məzarı da Selçuk bölgəsinin Ayasuluk təpəsində yerləşir. Miladdan sonra 5-ci əsrdə Bizans imperatoru Justinyen tərəfindən İohanın məzarı üzərində ucaldılan nəhəng tikilinin (Bazilika) bir hissəsi indiyədək qalmaqdadır.



Burada tarixin ən dərin qatlarından dövrümüzə gəlib çatan maddi-mədəniyyət nümunələrindən biri də Efes antik şəhərinin qalıqlarıdır. Bəzi məxəzlərdə bu şəhərin tarixi miladdan 5 min il əvvələ gedib çıxır. Bura Ellinlər dövründə qədim Yunanıstanın, sonradan Roma və Bizans imperiyalarının paytaxtı olub. Tarixi mənbələrdə qeyd edilir ki, Roma dönəmində Efes dünyanın ən böyük və ən gözəl şəhərlərindən biri imiş.

Yaxud, İzmir–Efes yolu üzərində yerləşən Metropolis (miladdan öncə III yüzillikdə inşa edilib–Q.P.) Ellinlər dövründən indiyədək, demək olar ki, qorunub saxlanılmışdır.

İzmirdə belə tarixi məkan və abidələrin sayı-hesabı yoxdur. Buraya İzmirin Namazgah səmtində yerləşən Agora antik şəhərinin xarabalıqlarını, arxeoloji qazıntılar nəticəsində tapılan maddi-mədəniyyət nümunələrini, yaşının bizim eradan əvvəl 6-cı minilliyə aid olduğunu təsdiqləyən və dünyada ən qədim liman hesab edilən Limantəpəni, İzmirin 100 kilometrliyində yerləşən, sorağı dörd min il əvvəldən gələn, “əczaçılığın atası” Qalenin Vətəni olan qədim Pergamon şəhərinin qalıqlarını, miladdan əvvəl 198-ci ildə Berqama Kralı I Attalos tərəfindən tikilmiş, müəyyən dağıntılara məruz qalsa da, ilkin görkəmini saxlamış Bergama kitabxanasını (yarandığı vaxt fondunda 200 mindən çox kitab olub və qədim İskəndəriyyə kitabxanası ilə rəqabət aparıb-Q.P.), Makedoniyalı İskəndər tərəfindən dəniz səviyyəsindən 186 metr yüksəklikdə inşa edilmiş Kadifə qalasını (Pagos), Miladdan əvvəl üçüncü minilliyə aid edilən möhtəşəm Təpəkul sütunlarının qalıqlarını, “İncil”də adıçəkilən yeddi kilsədən ikincisi olan İzmir kilsəsini, müqəddəs kitabda adı keçən Misir fironu Serapisin adına inşa olunmuş, xristianlıqda “Həyat ağacı” anlamına gələn Ets Hayim sinaqoqunu, “Yeddi uyuyanlar” kilsəsini (bizim eranın 506-cı ili), İsa bəy camisini (1375-ci il) və başqalarını da aid etmək olar.



Burada təkcə izmirlilər üçün yox, bütün türklər üçün əziz olan bir ünvandan–Uşakizadə Lətifə xanım köşkündən söz açmamaq mümkün deyil. Çox da böyük olmayan üçmərtəbəli bu binadan Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk tərəfindən Qurtuluş savaşı və sonrakı dövrdə qərargah və iqamətgah kimi istifadə olunmuşdur. 1923-cü ildə Mustafa Kamal paşa ilə Lətifə xanımın nikahı da burada kəsilmişdir. Bu gün məktəb kimi istifadə olunan binada Mustafa Kamal paşanın və Lətifə xanımın fotoşəkilləri, onlara məxsus əşyalar, habelə həmin dövrə aid pul nümunələri və qəzet kolleksiyaları qorunub saxlanılır.

Sadaladığım bu tarixi məkanların, qədim maddi-mədəniyyət nümunələrinin bir neçəsi kifayət edər ki, həmin məmləkət öz zəngin keçmişi ilə öyünsün və dünyanın ən böyük turizm mərkəzinə çevrilsin. Burada isə belə ünvanların sayı-hesabı yoxdur.

Az qala, insanlığın yaşı qədər tarixi olan bu ulu diyarın başı çox bəlalar çəkib. Əvvəldə qeyd etdiyimiz kimi, bu torpaqlar qədim amazonkalıların Vətəni olmuşdur. Sonrakı dövrlərdə yunanlar, romalılar məmləkəti dəfələrlə əldən-ələ keçirmişlər. Şərqi Roma İmperiyası dövründə isə ərəblər, səlcuqlar, xaçlılar, genuyalılar...bu torpaqlar uğrunda qan tökmüş, mübarizə aparmışlar. Ərəblər ilk dəfə 672-ci ildə dənizdən hücum edərək, İzmiri ələ keçirmişlər. Onlar bu şəhərdən Konstantinopola hücum üçün platsdarm kimi istifadə etmək istəyirdilər.

Türklər İzmiri ilk dəfə 1081-ci ildə Çaka bəyin komandanlığı ilə dəniz tərəfdən hücuma keçərək aldılar. Çaka bəyin ordusu İzmirdən sonra Egey adalarını və Çanaqqalanı da zəbt etdi. Gözlənilməz hücumları ilə rumluları dəhşətə gətirən Çaka bəyin vəfatından sonra –1098-ci ildə bizanslılar İzmiri geri aldılar. Şəhərin sahilyanı hissəsi isə Rodos cəngavərlərinin əlinə keçdi.

1310-cu ildə Aydınoğlu Umur bəy bütün şəhəri ələ keçirdi. 1344-cü ildə genuyalılar Müqəddəs Pyotr qalasını, şəhərin aşağı hissəsini isə cenevizlilər öz nəzarətinə aldılar. Yuxarı şəhərə (Kadivekalı) Aydınoğlular bəyliyi hakim idi. Şəhərin aşağı hissəsinin “Gavur İzmir” adlandırılması da o dövrdən qalmadır. Osmanlılar 1398-ci ildə İzmiri tamamilə ələ keçirərək, şəhəri nəzarətə götürdülər. Bundan sonra, daha doğrusu, 1403-cü ildə Əmir Teymurun monqol ordusu Ankara yaxınlığındakı döyüşdə osmanlılara qalib gəldikdən sonra İzmir bölgəsini də zəbt etdi. Monqollar Müqəddəs Pyotr qalasını da dağıtdılar.

Sultan II Muradın dövründə Osmanlı imperatorluğu bərpa edildikdən sonra İzmiri və ətraf əraziləri yenidən ələ keçirdi. Bundan sonra Egey dənizi boyu ərazilərin Osmanlı İmperiyası tərkibindəki dövrü başlandı.

İzmirin ilk Osmanlı hakimi Karasubaşı Həsən ağa olmuşdur. 1605–1606-cı illərdə bu ərazidə Cəlalı, Ərəb Sait və Kalenderoğlu üsyanları baş vermişdir. 1620-ci illərdə İzmir Osmanlı İmperiyasının ən mühüm ticarət mərkəzlərindən birinə çevrilmişdi. Burada 1619-cu ildə Fransa, 1620-ci ildə isə İngiltərə konsullıqları açılmışdır.





Şəhər əhalisinin tərkibində də ciddi dəyişikliklər baş verirdi. XVI əsr mənbələrində İzmirin 9 rayonundan yalnız birində xristianların yaşadığı bildirilir. Şəhərdə 19 məscid, 18 sinaqoq və yalnız 1 rum pravoslav kilsəsi vardı. O dövrdə İzmirin mərkəzində yaşayan əhalinin əksəriyyətini müsəlman-türklər təşkil edirdi. 1672-ci ildə İzmirə səfər edən Övliya Çələbi əhali tərkibinin dəyişməsi ilə bağlı yazırdı ki, Punta (Alsancaq) məhəlləsində, əsasən, qeyri-müsəlmanlar, levantinlər və Qərb ölkələrindən gəlmiş tacirlər cəmləşib.



Görənlərin heyran qaldığı İzmir tarix boyu başıbəlalı olub. 1676-cı ildə şəhərdə vəba epidemiyası başlayıb və 30 minədək insan həlak olub. 1742 və 1841-ci illərdə burada çox böyük yanğınlar baş verib, şəhərin əsas hissələri yanıb külə dönüb. Bütün bunlara baxmayaraq, şəhər əcnəbilərin, xüsusən, fransız, ingilis, italyan və holland tacirlərinin sevimli ticarət mərkəzinə çevrilib. Belə sürətli inkişafın nəticəsində əyalət mərkəzi (Aydın vilayəti) 1841-ci ildə müvəqqəti, 1850-ci ildə isə daimi olaraq İzmirə köçürüldü.

Osmanlı imperatorları – Sultan Əbülməcid (1850), Sultan Əbdüləziz (1863) və sonrakı sultanlar bu şəhəri tez-tez ziyarət edir, vilayətin inkişafına diqqət yetirirdilər.

Birinci dünya müharibəsində Türkiyənin məğlubiyyətindən sonra–1919-cu il mayın 15-də Yunanıstan İzmiri işğal etdi. Bu işğal dövrü üç ildən artıq–1922-ci il 9 sentyabradək (9 Eylül) çəkdi.

*(ardı var)*

**Qüdrət PİRİYEV,**
**“Xalq qəzeti”**
**Bakı-İzmir-Bakı**